2003-cü ildən Avropa İttifaqı Avropa qonşuluq siyasətini (ENP) inkişaf etdirməyə başladı (ENP), bunun da məqsədi genişlənmiş Avropa İttifaqının şərq və cənub qonşuluğunda yeni ayırıcı xətlərdən kənarlaşma və sözügedən qonşuluqda firavanlığa, dinc inkişafa və təhlükəsiz möhkənlənməyə dəstəyin verilməsidir. ENP çərçivəsində Avropa İttifaqının qonşuları ilə münasibəti demokratiyaya, qanunun aliliyinə və insan hüquqlarının müdafiəsi dəyərlərinə istinad edir və tərəflər arasında siyasi, iqtisadi və mədəni yaxınlıq prosesinin dəstəkləndirilməsinə istiqamətlənmişdir. Qeyd etmək lazımdır ki, Avropa qonşuluq siyasəti  Gürcüstan, Ermənistan və Azərbaycanda 2004-cü ilin iyun ayından yayımlanır və növbəti sahələrdə tərəqqinin əldə edilməsi məqsədini daşıyırdı:

- Standartların və qaydaların uyğunluğu;
- Avropa İttifaqının “qonşuluq siyasətində” iştirak edən ölkələrə preferentiv ticarət rejimlərinin verilməsi, Avropa İttifaqının bazarına girişin asanlaşdırılması məqsədilə;
- İnsan Resursunun sərbəst yerdəyişməsi və qanuni miqrasiya əsaslarının yaradılması;
- Təhlükəsizlik məsələlərində, özəlliklə də, terrorizmə, transmilli mütəşəkkil cinayətə, narkotiklərin tranzitinə, trafikinqə, pulun ağardılması və korrupsiyaya qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsi;
- Avropa İttifaqının münaqişələrin tənzimlənməsi (Conflict Resolution) və böhran vəziyyətlərinin idarəetmə (Crisis Management) məsələlərində daha aktiv iştirak;
- İnsan hüquqlarının müdafiəsi və mədəniyyət sahəsində əməkdaşlığın dərinləşdirilməsinə daha çox səylərin yönəldilməsi;
- Avropanın qonşuluq siyasətində iştirak edən ölkələrin Avropanın nəqliyyat, enerji və telekommunikasiya şəbəkələrinə, eləcə də elmi tədqiqatların Avropa məkanına inteqrasiyası (European Research Area);
- Sərmayelərə dəstəyin verilməsi və onların müdafiəsinin yeni vasitələrinin hazırlanması;
- Avropa İttifaqının “qonşuluq siyasətində” iştirak edən ölkələrin tələbatlarına daha yaxşı yönəlmiş yardımın təmin edilməsi;
- Avropa Sərmayelər Bankının (EIB) kreditlərinin əlçatması daxil olmaqla, maliyyələşdirmənin yeni mənbələrinin axtarışı.

2006-ci ilin noyabrında, Gürcüstan Hökuməti və Avropa Komissiyası arasında Gürcüstan-Avropa İttifaqının Avropa qonşuluq siyasətinin fəaliyyət planının anlaşması

başa çatdı və bu da əməkdaşlığın strateji məqsədlərinin və müvafiq siyasi və iqtisadi əsas məsələlərin həyata keçirilməsinə dəstək verirdi. Fəaliyyət planı 2006-cı ilin noyabrın 14-də qəbul edildi. Avropa qonşuluq siyasəti Gürcüstan və Avropa İttifaqı arasında əməkdaşlığın dərinləşməsi tərəfindən böyük rol oynadı və öıkədə iqtisadi islahatların keçirilməsinə və dövlət qurumlarının formalaşması prosesinə dəstək verdi.

